## *Dəli bir ağlamaq keçir könlümdən*

Baxıram dünyanın bu gərdişinə,
Dəli bir ağlamaq keçir könlümdən.
Fələk rəvac verdi namərd işinə,
Dəli bir ağlamaq keçir könlümdən.

Torpaqda haqqı var axan qanın da,
Bir nərin qolları düşüb yanında,
Müqəddəs Şəhidlər xiyabanında,
Dəli bir ağlamaq keçir könlümdən.

Yanmadım ömrümdən keçən illərə,
Baxıb məzarımda solan güllərə,
Söykəyib üzümü qərənfillərə,
Dəli bir ağlamaq keçir könlümdən.

Dünyanın sükutu bu daş qəfəsdə,
Köksümdə qövr edib hıçqıran səs də,
Toy libası geymiş bu qəbrin üstə,
Dəli bir ağlamaq keçir könlümdən.

Mənası bir imiş toyun, yasın da,
Bu qara zülmətin, ağ libasın da,
Durub haqq evinin astanasında,
Dəli bir ağlamaq keçir könlümdən.

Bu qəlbim ovunmaz  sınıq saz kimi,
Dərd də gülə-gülə gəldi yaz kimi,
Allaha, tanrıya etiraz kimi,
Dəli bir ağlamaq keçir könlümdən.

Bu qanlar töküldü bu torpaq üçün,
Çarmıxa çəkildi Alı haqq üçün,
Bu qəmdən silkinib yaşamaq üçün,
Dəli bir ağlamaq keçir könliimdən.

Mustafayev A. Dəli bir ağlamaq keçir könlümdən : şeir // Dəli bir ağlamaq keçir könlümdən. – Bakı : Nicat, 1992. – S.129-130.